

Hüseyn Artıkoğlu

"Kooplayihə-AHB" firmasının prezidenti, SOYDAŞ İctimai Birliyinin Məsləhət Şurasının üzvü, t.ü.f.d, dosent

# Sözün əsl mənasında avtoritet – Telman Əliyevə son vida sözü

***Hər telefonla danışıb hal-əhval tutanda 'Mən lap əlayam, özünüzə fikir verin" deyərdi. 8 mart 2021-ci ildə Telman müəllimin bu dünyanı tərg etdiyi xəbəri gəldi. Elə bil bu dünya bir qədər yetimləşdi mənim üçün. Ona laiq olan töröni yapa bilməsək də dostlarının qəlbində bir dəyərli insan heykəli qoydu getdi. Telman müəllim böyük hərflərlə yazılacaq müəllim və ziyalı idi. Telman müəllim haqqında yazmaq mənim üçün böyük məsüliyyətdir. Onun o qədər insana, müəllimə, ziyalıya xas olan gözəl keyfiyyətləri var idi ki, mənim qələmimin onu olduğu kimi işıqlandırmağa gücü çatacağına ehtiyat edirəm. Odur ki, qələmi alıb yazana kimi xeyli zaman ötürdüm. Mənim müəllim tərəfdən bəxtim gətirib. Həm orta məktəbdə həm də institutda möhtəşəm müəllimlərdən dərs almışam. Belə müllimlərdən biri, bəlkə də birincisi elə Telman müəllimdir.***

Telman Xurşud oğlu Əliyev — Texnika elmləri doktoru, akademik, Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat mexanikası kafedrasının professoru, Ukrayna İnşaat Akademiyasının akademiki (2000), Beynəlxalq Ekoenergetika Akademiyasının elmlər doktoru (1996), Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının akademiki (2008).

Telman müəllim ölkəmizdə də bir sıra mükafatlarla təltif olunmuşdur. O, Respublika Təhsil Cəmiyyətinin birinci mükafatına (2003), o, iki dəfə Azərbaycan Təhsil Nazirinin fərmanı ilə (2000, 2005-ci illər), Beynəlxalq Ekoenergetika Akademiyasının xüsusi qızıl medalına layiq görülmüşdür (1999–cu ildə). Azərbaycan Ağsaqqallar Şurasının fəxri fərmanı ilə təltif olunmuşdur (2010).

Moskvadan Nobel mükafatı laureatı, dahi alim, akademik Basovun imzası ilə fəxri fərman almışdır. Moskvadan iki dəfə Bilik cəmiyyətinin döş nişanı ilə təltif olunmuşdur.

Telman müəllim Nobel mükafatı Komitəsinin ekspertidir (2010-cu ildən). Onun yeni konsepsiyaları və kəşfləri 2010–cu il dekabrın 16-da Nobel mükafatına təqdim olunmuşdur.

Elmi-pedaqoji fəaliyyətinin 50 illiyi ilə bağlı olaraq qeyri-hökumət təşkilatı olan və "Əsrin ziyalıları" Xeyriyyə İctimai Birliyi (sədri M.Göyçəli) T.X.Əliyev "Əsrin ziyalısı", "İlin ən yaxşı elm adamı" medalı ilə təltif etmişdir.

Telman müəllim ABŞ-da "Dünyanın İntekllektual Lideri" qızıl medalı (ABŞ, 2004), "Dünyanın 500 elm Lideri" nominaqasiyasının qalibi ordeni ilə (ABŞ, 2002), Beynəlxalq Akademiyanın qızıl medalı ilə (1999) təltif olunmuş və "Dünyanın 500 elm lideri" nominasiyasının qalibi ordeninin təsis üzvü seçilmişdir.

***Telman müəllim akademik Yusif Məmmədəliyev və akademik Zahid Xəlilov adına mükafat almışdır (1993, 2017). O, həmçinin akademik Yusif Məmmədəliyev adına medalla təltif olunmuşdur (1993).***

***Telman müəllim, qabaqcıl təhsil işçisi adını almış, dəfələrlə Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir.***

Telman müəllim, özü deyir ki, müəllimlik mənim ləyaqət ölçüm, alimlik düşüncə tərzim, publisistika mübarizə meydanımdır. O, dəfələrlə universtetin elmi konfranslarında, eləcə də, respublika elmi konfranslarında və beynəlxalq elmi konfranslarda məruzələr etmişdir. Bu məruzələr, əsasən, zəlzələ hadisəsinə və zəlzələyə davamlı mühəndis qurğularına aid olmuşdur. Telman müəllim elmə, xüsusilə zəlzələyə davamlı qurğular nəzəriyyəsinə xeyli yeniliklər, yeni anlayışlar gətirmişdir. O, 130 elmi əsərin, dövlət qeydiyyatından keçmiş (2003 və 2005-ci illər) iki kəşfin, patentləşdirdiyi ondan çox ixtiranın, 15 yeni modelin, 17 kitabın, 3 monoqrafiyanın, yüzlərlə elmi populyar əsərin müəllifidir.

Alim, pedaqoq, publisist, Milli Ensiklopediyamızın elmi məsləhətçisi olan Telman müəllim uzun illər (1983-cü ildən) Azərbaycan Dövlət televiziyasının "Elm və həyat" verilişinin aparıcısı olub. O, bu verilişdə 45 böyük elmi məsələlərə aid verilişin ssenarisini özü yazmış və aparıcı olmuşdur.

Telman müəllimin alim kimi ən böyük xidmətlərindən biri onun Bakı metrosunun naturada zəlzələyə davamlılığının sınaq üsulu ilə (eksperimental yolla) həyata keçirməsidir. Bu eksperimentdən sonra Bakıda baş vermiş Xəzər zəlzələsi (2000-ci il) onun aldığı nəticələri tamamilə sübut etdi. Metromuzda heç bir dağıntı, çat olmadı. Onun ən böyük əsərlərindən biri "Seysmik riskin azaldılmasının yeni metodudur". Bu metodu o, 2002-ci ildə Beynəlxalq konqresdə məruzə etmişdir. Sonra konqresin seçilmiş materiallarında çap olunmuşdur.



***Telman müəllim Azərbaycan Memarlıq və İnşaat Universitetində işləməklə bərabər uzun illərdir ki, AMEA-nın Respublika Seysmoloji Xidmət Mərkəzində də böyük elmi işçi vəzifəsində çalışırdı. Orada elmi-texniki şuranın üzvü idi. O, həmin elmi-texniki Şurada dəfələrlə antiseysmik qurğular nəzəriyyəsi sahəsində məruzə etmişdir.***

Telman müəllim, işlədiyi universitetdə 15 il dekan müavini, on ilsə onun təşəbbüsü ilə yaranan tikinti–iqtisad fakültəsində dekan olmuşdur. Bu 55 ildə o, Azərbaycan xalqının 3 nəslinə mühəndislik dərsi demişdir. Onun tələbələri ordu halındadır. Onların arasında generallar, istehsalat komandirləri, Rusiya Federasiyasının Əmək qəhrəmanları, Əməkdar inşaatçı və mühəndisləri də vardır. Onlar öz müəllimləri ilə görüşərdilər. Telman müəllim deyirdi ki, bu tələbələrim mənim yeganə ən böyük sərvətimdir.

Telman müəllim öz əsas işləri ilə bərabər bir müddət AMEA-nın orqanı olan "Elm və həyat" jurnalında da texniki elmlər şöbəsinin müdiri vəzifəsində çalışmış və həmin jurnalda rubrika açmış və çoxlu məqalələr yazmışdır.

1970-ci ildə Telman müəllim mənə İnşaat Mexanikası fənindən dərs dedi. Bu zaman onun 27 yaşı olardı ya olmazdı. Bu az yaşa baxmayaraq Telman müəllimin mühazirələri möhtəşəm idi: səlis danışıq qabiliyyəti, mövzunun məğzini tələbəyə anlamlı çatdırma bacarığı onun öz ixtisasını mükəmməl bildiyindən xəbər verirdi. Hərçənd bu xususiyyət hər müəllimə xas olan şey deyil. Öz bildiyin elmi və yaxud peşəni başqasına asan ötürmək hər ustadın taleyinə yazılmayıb. Mən və mənim kimi kurs(sinif) yoldaşlarımın əksəriyyəti Universitetin Mexanika Riyaziyat və Tibb Univerisitetinin "konkurusundan" keçməyənlər toplusu idi. Axşam şöbəsinin 1287a saylı qrupunda oxuyurduq. Qrupda 7 əlaçı, qalanları "5" və "4" –lə oxuyan uşaqlar idik. Bildiyim qədər, o zamana kimi və ondan sonra institutun axşam şöbəsində belə güclü kontenqet olmamışdır. Bunu eşidən Telman müəllim bu qrup haqqında Politexnik İnstitutunun "İnsaatçı" qəzetində böyük bir məqalə derc etdirdi. Nədən bunu xatırladım? İnsanlara vaxtında qiymət vermək özü də bir elmdir. Ola bilsin bunun nəticəsi idi ki, uşaqlar (tələbələr) bundan sonra "əla" qiymət almaq üçün daha mübaiz oldular. Telman müəllim bizim qrupdan və bizlə "patok" (birləşən) olan qruplardan "Tələbə elmi cəmiyyətinə" uşaqlar dəvət etdi və elmi mövzular verdi. Bu işlə əlaqədar bir çox macərələrimiz də oldu. Bunlarla başınızı ağrıtmaq istəmirəm.

***Yuxanda qeyd etdiklərimin biz canlı şahidləriyik. Telman müəllim çox ictimai fəal idi. O zaman Telman müəllim bizim üçün, sozün əsl mənasında, avtoritet idi. İllər keçdi, xalqın ağır günlərində o xalqla oldu. Onun sonralar 'Borçalı" ictimayi birliyinə təşrifi və burada İdarə Heyyətinin üzvü kimi fəal iştirakı mənim üçün xoş bir hadisə oldu. Mən Telman müəllimə Uca Tanrıdan rəhmət diləyirəm.***

***Qəbrin nurla dolsun, əziz MÜƏLLİM.***

*1970-ci ildə Telman müəllim mənə İnşaat Mexanikası fənindən dərs dedi. Bu zaman onun 27 yaşı olardı ya olmazdı. Bu az yaşa baxmayaraq Telman müəllimin mühazirələri möhtəşəm idi: səlis danışıq qabiliyyəti, mövzunun məğzini tələbəyə anlamlı çatdırma bacarığı onun öz ixtisasını mükəmməl bildiyindən xəbər verirdi. Hərçənd bu xususiyyət hər müəllimə xas olan şey deyil. Öz bildiyin elmi və yaxud peşəni başqasına asan ötürmək hər ustadın taleyinə yazılmayıb. Mən və mənim kimi kurs(sinif) yoldaşlarımın əksəriyyəti Universitetin Mexanika Riyaziyat və Tibb Univerisitetinin "konkurusundan" keçməyənlər toplusu idi. Axşam şöbəsinin 1287a saylı qrupunda oxuyurduq*